Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

# Marketinq Sammiti 2017" – imkanları inkişaf etdir!

Image not readable or empty
/uploads/images/news/bc4da6fd20464a7da73759396db27b87_600x500-resize_crop-2340.jpg

Azərbaycanda uğurla reallaşan prioritet istiqamətlərdən biri qeyri-neft sektorunun inkişafıdır. Bu gün rəqabətqabiliyyətli və ixracyönümlü yerli məhsulların xarici bazarlarda "Made in Azerbaijan" brendi altında təşviqi istiqamətində kompleks tədbirlər görülür.

23 dekabr 2017-ci il tarixində İqtisadiyyat Nazirliyinin dəstəyilə AZPROMO və AzMarketinq MMC-nin birgə təşkilatçılığı ilə Bakı Biznes Mərkəzində "Made in Azerbaijan" brendinin inkişafına və milli brendlərinin yaradılmasının təşviq edilməsinə həsr olunmuş birinci "Marketinq Sammiti" keçirilib.

Tədbirdə Azərbaycanın 200 qabaqcıl şirkətinin marketinq nümayəndələri iştirak edib.

AZPROMO-nun vitse prezidenti Yusif Abdullayev "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi istiqamətində görülmüş işlərə barədə məlumat verib, yerli şirkətlərin daxili və xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi üçün öz uğurlu brendlərinin yaratmalarının əhəmiyyətini vurğulayıb.

Azmarketing MMC-nin nümayəndəsi Tural Abbaslı "Şirkətin uğur formulunda kommunikasiya modelləri və rolu" təqdimatı ilə çıxış edib.

Tədbirdə şirkətlərin daxili və xarici bazarlarda sağlam mövqe tutmaq üçün qabaqcıl standartların tədbiqi, ixrac siyasətinin düzgün strateji planlamasının aparılması, marka siyasətinin daha doğru və sağlam qurulması kimi aktual mövzular ətrafında müzakirələr aparılıb və təqdimatlar keçirilib.